Azərbaycan müəllimi

# Respublika fənn olimpiadalarının nəticələri barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

2020-2021-ci tədris ili üzrə həyata keçirilmiş məktəblilərin Respublika fənn olimpiadalarının nəticələrinin elan edilməsi məqsədilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2020-2021-ci tədris ili üzrə Respublika fənn olimpiadalarının nəticələri elan edilsin (nəticələrin siyahısı əlavə olunur).

**2.** İnformasiya və vətəndaşlara xidmət şöbəsi (R.Xanlarov) əmrin çoxaldılıb aidiyyəti struktur qurum və bölmələrə, yerli təhsili idarəetmə orqanlarına çatdırılmasını təmin etsin.

**3.** İctimaiyyətlə əlaqələr sektoru (C.Valehov) əmrin "Azərbaycan müəllimi" qəzetində və Təhsil Nazirliyinin internet səhifəsində dərc edilməsini təmin etsin.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının**
**təhsil naziri**

*30 iyun 2021-ci il*